


AİYİB

Free Economy

# Məktəb layihələrinə ayrılmış dövlət investisiyalarının monitorinqi üzrə

# YEKUN HESABAT



http://freeeconomy.az

*Zöhrab İsmayıl, Alı Rza, Ləman Babayeva, Ayxan Nəsibli*
*MƏKTƏB LAYİHƏLƏRİNƏ AYRILMIŞ DÖVLƏT İNVESTİSİYALARININ MONİTORİNQİ ÜZRƏ YEKUN HESABAT*
*Bakı – 2010, 30 səh.*

Bu nəşr Azad İqtisadiyyata Yardım İctimai Birliyinin ABŞ Səfirliyinin maliyyə dəstəyi ilə həyata keçirdiyi "Dövlət büdcəsindən məktəblərin tikintisi və təmirinə ayrılmış investisiyaların monitorinqi" layihəsinin nəticələrinə həsr olunub. Nəşrdə 2007-2008-ci illərdə Azərbaycan dövlət büdcəsindən məktəblərin tikintisinə və təmirinə ayrılmış vəsaitlər üzrə təhlil, monitorinqi aparılmış 20 məktəb tikintisi və təmiri layihələri haqqında, müşahidəsi aparılmış layihələrın icrası barədə geniş məlumatlar, müqayisə və təhlil yer alıb. Həmçinin məktəb tikintisi və təmiri üzrə Təhsil Nazirliyinin şəffaflığı və hesabatlığının vəziyyətinə ayrıca bölmə həsr olunub. Nəşr hesabat əldə olunmuş nəticələr və hazırlanmış tövsiyələrlə yekunlaşır. Yekun hesabatdakı məlumatlar Nazirlər Kabinetinin hesabatlarına, sərəncamlarına, Təhsil Nazirliyinin hesabatlarına, nazirliyin AİYİB-in informasiya sorğusuna cavablarına, Nərimanov Rayon Məhkəməsi, Apellyasiya Məhkəməsi və Ali Məhkəmənin AİYİB-in Təhsil Nazirliyinə qarşı informasiya əldə etmək işi üzrə məhkəmə iddiaları üzrə qərarlarına, rayon təhsil şöbələrinin rəhbərləri, məktəb direktorları, podratçı şirkətlərin nümayəndələri ilə monitorinq müsahibələrinə və layihə icraçılarının müşahidələrinə əsaslanır. Nəşrdə irəli sürülən fikirlər, mülahizələr Yekun Hesabatın müəlliflərinə aiddir və buna görə donor hər hansı məsuliyyət daşımır.

**Korrektor:** Kəmalə Cəfərova

***Yekun Hesabat ABŞ-ın Azərbaycandakı Səfirliyinin maliyyə dəstəyi ilə nəşr edilib.***

**MÜNDƏRİCAT**

QISALTMALAR ........................................................................................................................ 4

GİRİŞ ....................................................................................................................................... 5

I. MƏKTƏBLƏRİN TİKİNTİSİ VƏ TƏMİRİNƏ AYRILMIŞ VƏSAİTLƏR ........................... 7

II. MƏKTƏB LAYİHƏLƏRİNİN MONİTORİNQİ ................................................................ 12

III. ŞƏFFAFLIQ VƏ HESABATLILIQ ..................................................................................... 24

IV. NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR .......................................................................................... 26

İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏRİN SİYAHISI ................................................................ 28

ƏLAVƏ. FOTOFAKTLAR ....................................................................................................... 29

## QISALTMALAR

| | |
|---|---|
| **ASC** | Açıq Səhmdar Cəmiyyəti |
| **ABŞ BİA** | ABŞ Beynəlxalq İnkişaf Agentliyi |
| **Dİ** | Dövlət investisiyaları |
| **Lİ** | Layihə İnstitutu |
| **LSS** | Layihə smeta sənədləri |
| **MMC** | Məhdud Məsuliyyətli Cəmiyyət |

# GİRİŞ

XXI əsrin əvvəllərindən başlayaraq neft gəlirlərinin artması Azərbaycanda sosial sektora və infrastruktura böyük dövlət investisiyaları yatırmağa imkan yaradıb. Bununla da təhsil ocaqlarının tikintisi və təmiri layihələri üçün böyük vəsaitlər ayrılmağa başlanıb.

2004-2008-ci illər ərzində bütün mənbələr üzrə təhsilə qoyulan investisiyaların həcmi 401,2 mln. manat təşkil edib. Təhsil sektoruna qoyulan investisiyalar 2006-cı ildən başlayaraq kəskin artmağa başlayıb. Əgər bu investisiyalar 2004-cü ildə 5,8 mln. manat təşkil etmişdisə, 2008-ci ildə 222,5 mln. manata çatıb.

**2003-2008-ci illərdə bütün mənbələr üzrə təhsilə qoyulan investisiyalar (mln. manat)**




*Məktəb tikintisi 2004-cü illə müqayisədə 2008-ci ildə 38 dəfə bahalaşıb*

Təhsil Nazirliyinin məlumatına əsasən, 2004-2008-ci illərdə ölkədə 1281 yeni məktəb tikilib istifadəyə verilib. “2008-2015-ci illərdə yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”ına əsasən, 2008-2012-ci illərdə daha 450 məktəb üçün yeni binanın inşası, 600-dən çox məktəb üçün isə əlavə korpusların tikintisi, həmçinin 1200 məktəbin əsaslı təmiri nəzərdə tutulur.

Diqqətçəkən məqam isə son 5 il ərzində məktəb tikintisinin dəfələrlə bahalaşmasıdır. Məsələn, 2004-cü ildə tikilən 1 məktəb üzrə orta investisiya qoyuluşu 35,6 min manat, 2008-ci ildə isə 1383,9 min manat təşkil edib. Ancaq bu bahalaşmanın məktəblərin keyfiyyətində və imkanlarında nə dərəcədə özünü göstərdiyini birmənalı söyləmək mümkün deyil. Bu prosesdə daha çox son illərdəki yüksək inflyasiya prosesindən sui-istifadə edərək məktəb tikintisi layihələrinin smeta qiymətlərinin artırılması özünü daha qabarıq şəkildə göstərir.

**2003-2008-cı illərdə tikilmiş məktəblərin sayı**




*Son 5 il ərzində Azərbaycanda ən çox məktəbin tikildiyi dövr 2005-ci ilə təsadüf edir*

2000-ci illərin əvvəlindən başlayaraq ölkədə məktəb tikintisi vüsət alsa da, 2004-2009-cu illər ərzində Azərbaycanda təhsil ocaqlarının ümumi sayı 4553-dən 4550-yə düşüb. Həmçinin təhsil ocaqlarının regional mənzərəsində ciddi dəyişikliklər baş verib. Daha dəqiq desək, son 6 il ərzində şəhərlərdəki təhsil müəssisələrinin sayı artdığı halda, kəndlərdəki təhsil müəssisələrinin sayı azalıb. Eyni zamanda, bu müddət ərzində ölkə üzrə şagirdlərin sayı da 11,8% azalıb. Belə görünür ki, bir tərəfdən məktəb tikintisinin genişlənməkdə olduğu Azərbaycanda o biri tərəfdən məktəblərin sıradan çıxması vüsət alıb.

**2004-2009-cu illərdə təhsil müəssisələrinin və şagirdlərin sayı**

| Göstəricilər | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|
| Təhsil müəssisələrinin sayı, ədəd | 4553 | 4544 | 4550 | 4529 | 4555 | 4550 |
| Şəhər təhsil müəssisələri, ədəd | 1142 | 1147 | 1156 | 1154 | 1186 | 1193 |
| Kənd təhsil müəssisələri, ədəd | 3411 | 3397 | 3394 | 3375 | 3369 | 3357 |
| Şagirdlərin sayı, nəfər | 2046145 | 1999999 | 1957981 | 1909641 | 1861989 | 1803947 |

Təhsil sektoruna böyük investisiyaların qoyulduğu, həmçinin Azərbaycanda məktəb və təhsil probleminin ciddi şəkildə dayandığı bir şəraitdə xərclənən büdcə vəsaitlərindən nə dərəcədə düzgün istifadə edilməsi sualı ortaya çıxır. AİYİB-in "Dövlət büdcəsindən məktəblərin tikintisi və təmirinə ayrılmış investisiyaların monitorinqi" layihəsinin məqsədi də məhz bu sualı aydınlaşdırmaq məqsədi daşıyıb. Layihənin özəlliyi ondan ibarətdir ki, monitorinq prosesi əyalətlərdəki layihələri əhatə edib.

# I. MƏKTƏBLƏRİN TİKİNTİSİ VƏ TƏMİRİNƏ AYRILMIŞ VƏSAİTLƏR

Azərbaycanda təhsilə qoyulan investisiyaların əsas mənbəyi dövlət büdcəsidir. 2008-ci ildə təhsilə qoyulan cəmi investisiyaların 88%-i və ya 195,6 mln. manatı büdcə investisiyalarının payına düşür. Ümumiyyətlə isə, son illərdə büdcənin əsas xərc istiqaməti olan dövlət investisiyalarının təxminən 4,5-5%-i təhsil müəssisələrinin tikintisi, təmiri, bərpası və yenidənqurulmasına sərf edilir. Bu vəsaitlər Təhsil Nazirliyi vasitəsilə xərclənir.

**2006-2008-ci illərdə təhsil sektoruna yönəlmiş dövlət investisiyaları (mln. manat)**

| İstiqamət | 2006 | | 2007 | | 2008 | |
|---|---|---|---|---|---|---|
| | Mln. manat | Dİ-də payı, % | Mln. manat | Dİ-də payı, % | Mln. manat | Dİ-də payı, % |
| Təhsil obyektlərində təmir, tikinti və yenidənqurma işləri | 43,4 | 4,9 | 92,7 | 4,9 | 195,6 | 4,6 |

2008-ci ildə dövlət investisiya xərcləri çərçivəsində Təhsil Nazirliyinə ayrılmış vəsaitlər 288 layihəyə yönəldilib. 6 layihə nazirliyin, Bakı Şəhər Təhsil İdarəsinin və dörd rayonun təhsil şöbələrinin inzibati binalarının təmiri və tikintisini nəzərdə tutur ki, bunlara da 3,6 mln. manat vəsait ayrılıb. Ümumi vəsaitin 300 min manatı "Təhsil sahəsində islahatlar" layihəsində Azərbaycanın payını maliyyələşdirmək üçün nəzərdə tutulub. Milli Konservatoriyanın (1 mln. manat) və Xalq Təhsili Muzeyinin (120 min manat) tikintilərini də çıxsaq, qalan 279 layihə ölkə ərazisini əhatə edən orta və internat məktəblərin, uşaq bağçalarınnın tikintisi, təmiri və əlavə korpusların tikintisini nəzərdə tutur.

Orta və internat məktəblərin tikintisi layihələrinin sayı 115-dir. Onlardan biri Bakıda, biri Abşeronda, üçü Sumqayıtda, qalan 110 layihə isə digər şəhər və rayonlarda həyata keçirilib. Bu layihələrin ümumi dəyəri 89,7 mln. manat təşkil edir. Ümumi vəsaitin 1,04 mln. manatı Bakının, 50 min manatı Abşeronun, 2,8 mln. manatı Sumqayıtın, 85,8 mln. manatı digər şəhər və rayonların payına düşür.

2008-ci ilin dövlət investisiya proqramına respublika üzrə 32 orta və internat məktəb üçün əlavə sinif otaqlarının tikintisi daxil edilib ki, bu layihələrin də ümumi dəyəri 25,71 mln. manat təşkil edib. Əlavə sinif otaqlarının tikilməsi nəzərdə tutulan məktəblərin 25-i Bakıda, biri Abşeronda, 4-ü Sumqayıtda, biri Şamaxıda, biri isə Şabranda (keçmiş Dəvəçi) yerləşir. Bakıdakı məktəblər üçün əlavə sinif otaqlarının tikintisinə 20,36 mln. manat ayrılıb. Qalan 5,34 mln. manatın 712 min manatı Abşeron, 3,16 mln. manatı Sumqayıt, 1,18 mln. manatı Şamaxı, 300 min manatı isə Şabrandakı məktəblərin əlavə sinif otaqlarının tikintisi üçün nəzərdə tutulub. Məktəblərin təmiri ilə bağlı layihələrin sayı 107 olub ki, bunun da 45-i Bakıdakı, biri Abşerondakı, üçü Sumqayıtdakı, qalan 58-i isə başqa şəhər və rayonlardakı məktəbləri əhatə edib. Məktəblərin təmirinə ayrılmış ümumi vəsait 57,4 mln. manat təşkil edib. Ümumi vəsaitin 24,48 mln. manatı

Bakının, 525 min manatı Abşeronun, 1,76 mln. manatı Sumqayıtın, 30,63 mln. manatı isə başqa şəhər və rayonların payına düşür.

**2008-ci ildə məktəb tikintisi və təmiri layihələrinin regional mənzərəsi**

| **Regionlar** | **Layihələrin sayı** | **Dəyəri min manat** |
|---|---|---|
| **Məktəb və tədris korpuslarının tikintisi** | 115 | 56 660 |
| *O cümlədən* | | |
| Bakı və Abşeron | 2 | 1080 |
| Sumqayıt | 3 | 2820 |
| Gəncə | 1 | 240 |
| Digər şəhər və rayonlar | 109 | 52520 |
| **Əlavə sinif otaqlarının tikintisi** | 31 | 25710 |
| *O cümlədən* | | |
| Bakı və Abşeron | 26 | 21070 |
| Sumqayıt | 4 | 3160 |
| Gəncə | - | - |
| Digər şəhər və rayonlar | 2 | 1480 |
| **Cəmi** | **147** | **82370** |

Ümumiyyətlə isə 2008-ci ildə məktəb tikintisi və mövcud məktəblər üçün əlavə sinif otaqlarının tikintisi layihələrinin sayı 147-dir. Bundan 28 layihə Bakı və Abşeronun, 7 layihə Sumqayıtın, bir layihə isə Gəncənin payına düşür. Qalan layihələr respublikanın 44 rayonunu əhatə edir.

2008-ci ilin büdcə investisiya xərcləri hesabına məktəblərin və mövcud məktəblər üçün əlavə sinif otaqlarının tikintisi üzrə ən bahalı layihə dəyəri 1,66 mln. manat olmaqla, Bakının Binəqədi rayonunda 299 saylı orta məktəbdə 42 əlavə sinif otağının tikintisidir. Ən ucuz layihə isə 50 min manat dəyərində olub, Abşeronun Yeni Ceyranbatan massivində 200 yerlik (və ya 10 sinif otağından ibarət) məktəbin tikintisidir. Lakin mümkündür ki, sonrakı dövrlərdə bu layihə üçün əlavə dövlət investisiyası ayrılsın.

Qeyd edək ki, Təhsil Nazirliyinin 2008-ci ildə həyata keçirdiyi 44 layihə 2007-ci ildən başlanıb.

Bunlar aşağıdakılardır:

*– Milli Konservatoriyanın Xalq Təhsili Muzeyinin tikintisi;*

*– Bakı Şəhər Təhsil İdarəsinin inzibati binasının təmiri və yenidən qurulması;*

*– Balakən, Şəki, Yevlax, Astara, Ağcabədi, Ağstafa, Biləsuvar, Quba, Qusar, Qəbələ, İmişli, Zərdab, Kürdəmir, Saatlı, Lerik, Siyəzən və Qazax rayonlarının hər birində bir məktəbin tikintisi;*

*– Ucar, Cəlilabad və Gədəbəy rayonlarının hər birində iki məktəbin tikintisi;*

*– Lənkəran, Ağsu, Göygöl (keçmiş Xanlar) və Tovuz rayonlarının hər birində üç məktəbin tikintisi;*

*– Bərdə rayonunda qarışıq tipli internat məktəbin tədris korpusunun tikintisi;*

*– Sumqayıt şəhərində əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün internat məktəbin tikintisi;*

*– Bakının Əzizbəyov rayonunda üç, Yasamal rayonunda bir məktəbin təmiri.*

Bu layihələrin davam etdirilməsi üçün 2008-ci ilin büdcəsindən üst-üstə 27,69 mln. manat ayrılıb.

- ***2007-ci ilin layihələrinə baxış***

2007-ci ilin büdcə investisiya xərclərindən Təhsil Nazirliyinə ayrılmış 89,1 mln. manat 228 layihəyə yönəldilib. Layihələrin 87-si orta və internat məktəblərin tikintisi, 64-ü mövcud məktəblər üçün əlavə sinif otaqlarının tikintisi, 19-u məktəblərin təmirləri, 16-sı uşaq bağçalarının (körpələr evlərinin) tikinti və təmiri, 35-i isə məktəb, internat və uşaq bağçaları üçün qazanxanalar, idman zalları və başqa obyektlərin təşkilindən ibarət olub.

2007-ci il üzrə məktəb tikintisi layihələrinin 17-si Bakının, 4-ü Abşeronun, 66-sı isə digər rayon və şəhərlərin payına düşüb. Lakin Bakı və Abşerondakı 21 məktəbin tikintisi üçün ayrılmış vəsait digər şəhər və rayonlardakı 66 məktəbin tikintisi üçün ayrılmış vəsaitdən bir qədər çoxdur. Belə ki, Bakıdakı məktəblərin tikintisinə 21,28 mln. manat, Abşerondakı məktəblərin tikintisinə 3,14 mln. manat (birlikdə 24,42 mln. manat), respublikanın yerdə qalan şəhər və rayonlarına isə 22,7 mln. manat ayrılıb.

Əlavə sinif otaqlarına gəlincə, bu istiqamətdəki 64 layihədən 23-ü Bakıda, biri Abşeronda, biri Sumqayıtda, 39-u isə digər şəhər və rayonlarda nəzərdə tutulub. Bu layihələrə ümumilikdə 18,2 mln. manat ayrılıb ki, bunun da 10,4 mln. manatı Bakının, 300 min manatı Abşeronun, 300 min manatı Sumqayıtın, 7,2 mln. manatı isə yerdə qalan şəhər və rayonların payına düşüb.

2007-ci ilin büdcə investisiya xərcləri hesabına məktəblərin təmiri ilə bağlı həyata keçirilən 19 layihənin 14-ü Bakıya, 5-i isə digər şəhər və rayonlara aiddir. Bu layihələrə ümumilikdə 6 mln. manat ayrılıb. Ümumi məbləğin 3,9 mln. manatı Bakıdakı, 2,1 mln. manatı isə digər şəhər və rayonlardakı layihələr üçün nəzərdə tutulub.

Bunlardan başqa, Təhsil Nazirliyinə 2007-ci ildə büdcə investisiya xərclərindən daha 7 layihənin icrası üçün ümumilikdə 9,4 mln. manat da ayrılıb. Bu vəsait, əsasən, təmir-tikinti üzərində aşağıdakı layihələrə yönəlmişdir:

*– "Təhsil sahəsində islahatlar" layihəsində Azərbaycanın payı (1,1 mln. manat);*

*– Milli Konservatoriyanın tikintisi (2,1 mln. manat);*

*– Bakı Təhsil İdarəsinin binaları (2 mln. manatı);*

*– Müəllimlər İnstitutuna məxsus bina (2 mln. manat);*

*– Müəllimlərin İxtisasartırma İnstitutuna verilmiş Bakı şəhəri, Xaqani 33 ünvanındakı bina (0,5 mln. manat);*[1]

*– Azərbaycan Pedaqoji Universitetinin binası (800 min manat);*

[1] Bu bina sonradan Hesablama Palatasına verilib və yenidən qurulub.

*– Xalq Təhsili Muzeyinin tikintisi (900 min manat).*

- ***Məktəblərin təmir-tikintisi ilə bağlı bahalı layihələr***

Dövlət büdcəsindən investisiya xərcləri üzrə Təhsil Nazirliyinin həyata keçirdiyi layihələrə ayrılmış vəsaitləri nəzərdən keçirəndə məbləğlərin şişirdilməsi ilə bağlı çoxsaylı faktlara rast gəlmək mümkündür. Bunu, 2007-ci ilin büdcə investisiya xərclərinin bölgüsündə də olduğu kimi, 2008-ci ilin büdcə investisiya xərclərinin bölgüsünə də aid etmək olar.

2008-ci ilin büdcə investisiya xərclərinin bölgüsünə dair Nazirlər Kabinetinin 6 fevral 2008-ci il tarixli 44s nömrəli sərəncamına əsasən, Astaranın Marzəsəy, Yardımlının Honuba-Şıxlar və Qavran, Ağsunun Xəlilli, Ağcabədinin Xocavənd, İmişlinin Murğuzallı, Tovuzun Ağbaşlar, Sabirabadın Çölağamməddli, Gədəbəyin Arısu, Xanların Alməddli, Balakənin Gülüzarbinə, Goranboyun Yəhərçi Qazaxlar, Şamaxının Əng əxəran kəndlərində 180 yerlik məktəblərin hər birinin tikintisinə 704 min manat ayrılıb ki, bu da bir sinif otağı hesabı ilə 78,2 min manat edir.

Yaxud, Şabranın Şahnəzərli, Tovuzun Əhm ədabad və Cobasıxnaq, Lənkəranın Türkəran, Cəlilabadın Şilvəngə, Biləsuvarın Ağayrı, Ağcabədinin Təzəkənd, Salyanın Aydıngün, İsmayıllının Gülyan və Ağbulaq, Xaçmazın Bostançı, Hacıqabulun Tava, Samuxun Qovlarsan, Zaqatalanın Paşan, Qubanın Giləzikənd, Göygölün Xaqani, Qazaxın I Şıxlı, Gədəbəyin Xar-xar, Şəkinin Dərəcənnət və Aydınbulaq kəndlərində və Sumqayıt şəhərində 220 yerlik (11 sinif otağı) məktəblərin hər birinin tikintisinə 832 min manat ayrılıb, bu isə hər sinif otağı üçün 75 min manatdan çox vəsait deməkdir.

Daha bir neçə misal. Gəncənin Hacıkənd qəsəbəsində, Lerikin Buruq və Buzeyir, Qubanın Söhüb, Qəbələnin Savalan, Daşkəsənin Qotul kəndlərində 80 yerlik məktəblərin hər birinin tikintisinə 240 min manat ayrılıb ki, bu da bir sinif otağının 60 min manata başa gəldiyini göstərir.

Astaranın Pensər kəndində 2 saylı 480 yerlik məktəbin tikintisinə 1 220 min manat, Səncərədi kəndində 360 yerlik məktəbin tikintisinə 965 min manat ayrılıb ki, bu layihələrdə də bir sinif otağına düşən xərc 50-53 min manat təşkil edir.

Şəmkirin Təzəkənd kəndində 960 yerlik məktəbin tikintisinə 2 170 min manat, Şəkinin Kiçik Dəhnə kəndində 640 yerlik məktəbin tikintisinə 1 370 min manat, Astaranın Pəlikəş kəndində 640 yerlik məktəbin tikintisinə 1 140 min manat ayrılıb. Bu layihələrdə isə hər sinif otağına 35-45 min manat xərc düşüb.

Oxşar iri məbləğlərə mövcud məktəblər üçün əlavə sinif otaqlarının tikintisinə ayrılmış vəsaitlərdə də rast gəlmək olur. Məsələn, Bakının Nəsimi rayonundakı 159 saylı və Nərimanov rayonundakı 45 saylı məktəblərin hər biri və Sumqayıt şəhəri, H.Zeynalabdin qəsəbəsi, 19 saylı məktəb üçün 30 əlavə sinif otağının tikintisinə 1 180 min manat, Nizami rayonunun 272 saylı məktəbi üçün 35 əlavə sinif otağının tikintisinə 1 380 min manat, Binəqədi rayonunun 299 saylı məktəbi üçün 42 əlavə sinif otağının tikintisinə 1 660 min manat ayrılıb. Burada isə sinif otağına düşən tikinti xərclərinin 39 min manat təşkil etdiyini görürürük.

Bunu 2007-ci ilin büdcə investisiya xərclərindən məktəblərin təmir-tikinti layihələrinə ayrılmış vəsaitlərlə bağlı da demək olar. 2007-ci ilin bahalı layihələrindən bir neçəsini nümunə kimi göstərək: Qubanın Xınalıq kəndində 300 yerlik (15 sinif otağı) məktəbin tikintisinə 1 300 min, başqa sözlə, 1 sinif otağına 86,6 min manat; Xaçmazın Mehrəli Qışlaq kəndində 192 yerlik (10 sinif otağı) məktəbin tikintisi üçün 580 min və ya 1 sinif otağına 58 min manat; Ağcabədi

rayonunda 400 yerlik (20 sinif otağı) məktəbin tikintisinə 1 070 min, yaxud 1 sinif otağı üçün 53 min manat; Cəlilabadın Sadatlı kəndində 192 yerlik (10 sinif otağı) məktəbin tikintisinə 454 min, yaxud 1 sinif otağına 45,4 min manat; Bakının Xocasən (Sulutəpə) qəsəbəsində 840 yerlik (42 sinif otağı) məktəbin tikintisinə 1 250 min və ya 1 sinif otağına 29,7 min manat ayrılıb.

Həmçinin Yevlaxın Rüstəmli kənd məktəbi üçün 2 əlavə sinif otağının tikintisinə 76 min manat (1 sinif otağı 38 min manat), Sabirabadın Hacibəbur kənd məktəbi üçün 2 əlavə sinif otağının tikintisinə 84 min manat (1 sinif otağı 42 min manat), Ağsunun Kövlüç kənd məktəbi üçün 2 əlavə sinif otağının tikintisinə 100 min manat (1 sinif otağı 50 min manat), Gədəbəyin Əmiraslanlı kənd məktəbi üçün 2 əlavə sinif otağının tikintisinə 120 min manat (1 sinif otağı 60 min manat), Tovuzun H.Həsənli kənd məktəbi üçün 1 əlavə sinif otağının tikintisinə 84 min manat ayrılıb.

Bəzi layihələrin ikiillik olması heç də ayrılan vəsaitin bölünməsi və yaxud az işlənməsi ilə səciyyələnmir. Bakının Əzizbəyov rayonunun Binə qəsəbəsində 136 saylı 800 yerlik məktəbin təmirinə 2007-ci ildə 350 min, 2008-ci ildə 304 min manat ayrılıb ki, bu da bir sinif otağı üçün (normativə görə, bir sinif otağı 20 şagirddən təşkil olunur) 16,35 min manat deməkdir. Həmin qəsəbədəki 149 saylı 360 yerlik məktəbin təmirinə 2007-2008-ci illərdə üst-üstə 650 min manat (250 min 2007-ci ildə, 400 min 2008-ci ildə) ayrılıb və bu da bir sinif otağı üçün 36 min manatdan çox edir. Türkan qəsəbəsində 119 saylı 320 yerlik məktəbin təmiri bir sinif otağı hesabı ilə 18,5 min manat təşkil edib (2007-ci ildə 200 min, 2008-ci ildə 97 min manat).

***2007-ci ilin büdcə investisiya xərclərinin bölgüsünə dair Nazirlər Kabinetinin 2007-ci il 19 fevral tarixli 42s nömrəli sərəncamında qeydə alınan bir qeyri-dəqiqliyi göstərək: sərəncamda Bakının Zirə qəsəbəsində 640 yerlik 120 saylı məktəbin təmiri üçün vəsait iki fərqli bölmədə qeyd olunub. Bir "Bakının qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı" bölməsində 100 min manat məbləğində, bir də "Digər obyektlər" bölməsində 200 min manat məbləğində.***

Sumqayıt şəhərində əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün 260 yerlik internat məktəbin tikintisinə 2007-2008-ci illərdə 1,46 mln. manat (2007-ci ildə 300 min, 2008-ci ildə 1,16 mln. manat) ayrılıb. Bu isə bir məktəbli üçün 5,6 min manat, bir sinif otağı üçünsə minimum (hesab edək ki, hər sinif ən çoxu 10 şagirddən təşkil olunacaq) 56 min manat deməkdir.

Daha bir maraqlı məqam odur ki, bu cür layihələrin qiyməti əyalətlərə keçdikcə bir az da artır. Məsələn, Balakənin Qaravəli kəndində 360 yerlik məktəbin tikintisinə 2007 və 2008-ci illərdə üst-üstə 766 min manat ayrılıb ki, bu da bir sinif otağı üçün 42,5 min manat deməkdir. Şəkinin Baş Göynük kəndində 640 yerlik 2 saylı məktəbin tikintisinə isə son iki ildə 1,14 mln. manata yaxın vəsait ayrılıb. Bu da bir sinif otağının tikintisi üçün 35,5 min manatdan artıq vəsait deməkdir.

# II. MƏKTƏB LAYİHƏLƏRİNİN MONİTORİNQİ

➢ ***Metodologiya***

Bu monitorinq zamanı tədqiqat, informasiya sorğusu, müşahidə və müsahibə üsullarından istifadə edilib. Öncə monitorinq üçün seçilmiş layihələr barədə ümumi məlumat hazırlanıb, sonra rayon təhsil şöbələrinə və Təhsil Nazirliyinə informasiya sorğusu göndərilərək həmin layihələr barədə bir qədər detallı məlumatlar əldə edilib.

Monitorinq zamanı 10 məktəb layihəsi üzrə müşahidə aparılıb, podratçıların nümayəndələri və məktəblərin rəhbərləri ilə müsahibələr aparılıb. Bundan başqa, müqayisə üçün ABŞ və Yaponiya hökumətlərinin vəsaiti hesabına Azərbaycanda həyata keçirilmiş məktəb tikintisi layihələri barədə məlumatlar toplanıb. Onlardan biri barədə detallı məlumatlar toplanıb və müşahidəsi aparılıb.

Bu monitorinq zamanı istisnasız olaraq Nazirlər Kabinetinin və Təhsil Nazirliyinin rəsmi sənədlərində və məktublarında əks olunmuş məlumatlardan, təhsil şöbələrinin, podratçıların səlahiyyətli şəxsləri və məktəb direktorları ilə aparılmış müsahibələrdən və müşahidə zamanı aşkar edilmiş faktlardan istifadə edilib. Yekun olaraq əldə edilmiş məlumatlar təhlil olunub, müqayisələr aparılıb və tövsiyələr hazırlanıb.

➢ ***Monitorinq üçün seçilmiş layihələr***

AİYİB bu layihə çərçivəsində monitorinq aparmaq üçün 20 (+1) layihə seçib. Bu layihələr respublikanın 4 rayonunu – Quba, Xaçmaz, Bərdə və Tərtəri əhatə edib. Monitorinq üçün layihələr seçilərkən onların smeta dəyərlərinin orta olduğu, həmçinin monitorinq aparılan dövrdə istifadədə olması nəzərə alınıb. Eyni zamanda, seçilmiş rayonlardan ikisi – Quba və Xaçmaz orta inkişaf səviyyəsində olduğu halda, digər iki rayon – Bərdə və Tərtər qaçqınların məskunlaşdığı və yoxsulluğun səviyyəsinin yüksək olduğu rayonlardır.

Bununla belə, monitorinq üçün bu rayonlarda 2007-2008-ci illərdə həyata keçirilmiş bütün məktəb layihələri seçilib. Bu layihələrdən 20-si dövlət investisiya xərcləri, 1 layihə isə Yaponiya Səfirliyinin qrantı hesabına reallaşıb.

.

**Monitorinq üçün seçilmiş məktəb tikintisi layihələrinə ayrılmış vəsaitlər**

| Layihələr | Şagird yeri | Sinif otağı | 2007 min manat | 2008 min manat | Cəmi min manat |
|---|---|---|---|---|---|
| **Quba rayonu** | | | **1750** | **2521** | **4271** |
| Xınalıq kənd orta məktəbi | 300 | | 1300 | | 1300 |
| Qırız Dəhnə kənd məktəbi | 80 | 4 | 190 | | 190 |
| Ağbil kənd məktəbi | 220 | | 100 | 601 | 701 |
| Giləzikənd məktəbi | 220 | | | 832 | 832 |
| Söhüb kənd məktəbi | 80 | 4 | | 240 | 240 |
| Susay kənd məktəbi | 220 | | | 848 | 848 |
| Kələnov kənd məktəbi | 80 | 4 | 160 | | 160 |
| 3 saylı şəhər məktəbinin təmiri | | | | 462 | 462 |
| **Xaçmaz rayonu** | | | **4190** | **1603** | **5793** |
| Xaçmaz şəhər 8 saylı məktəbi | 1176 | | 1650 | | 1650 |
| Xudat 4-cü şöbə ibtidai məktəbi | 60 | 3 | 146 | | 146 |
| Qarabağı kənd ibtidai məktəbi | 60 | 3 | 144 | | 144 |
| Xaçmaz şəhər 9 saylı məktəbi | 840 | | 891 | | 891 |
| Xudat şəhər 4 saylı məktəbi | 840 | | 779 | | 779 |
| Mehrəli Qışlaq kənd məktəbi | 192 | | 580 | | 580 |
| 2 saylı şəhər məktəbinin təmiri | 640 | | | 771 | 771 |
| Bostançı kənd məktəbi | 220 | | | 832 | 832 |
| **Bərdə rayonu** | | | **517** | **1710** | **2227** |
| Cumalar kənd məktəbi | 160 | 8 | 217 | | 217 |
| Qarışıq tipli internat məktəbi | 220 | Tədris korpusu | 300 | 340 | 640 |
| Kətəlparaq kənd məktəbi | 640 | | | 1370 | 1370 |
| **Tərtər rayonu** | | | | **450** | **450** |
| Sarov kənd məktəbinin təmiri | 480 | | | 450 | 450 |

**Monitorinq üçün seçilmiş məktəb layihələri üzrə məlumatlar**[2]

| # | Layihənin adı | Tikinti sahəsi, $m^2$ | Məktəbin sahəsi, m2 | LLS-i hazırlayan qurum | LLS-in hazırlanma xərci, manat | Podratçı şirkət | Podratçının seçim üsulu | Ayrılmış vəsait, manat | Faktiki xərc, manat |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| **1** | Quba rayonu Xınalıq kəndi 300 ş.y. orta məktəbin tikintisi | 12800 | 1830 | "Azkommun-layihə" Lİ | 20500 | "Sabiqət İnşaat" MMC | Birbaşa müqavilə, 18 may 2007 | 1300000 | 1285400 |
| **2** | Quba rayonu Qırız Dəhnə kəndi 80 ş.y. ibtidai məktəbin tikintisi | 3440 | 488 | "Azkommun-layihə" Lİ | 7300 | "Sabiqət İnşaat" MMC | Birbaşa müqavilə, 20 iyun 2007 | 190000 | 188500 |
| **3** | Quba rayonu Ağbil kəndi 220 ş.y. orta məktəbin tikintisi | 9490 | 1349 | "Təmirçi" KM | 5100 | "Meliorator TQ" MMC | Tender, 29 oktyabr 2007 | 701000 | 691000 |
| **4** | Quba rayonu Giləzikənd 220 ş.y. orta məktibin tikintisi | 9490 | 1349 | "Təmirçi" KM | 12000 | "Rabitəinşaat" ASC | Tender, 21 aprel 2008 | 832000 | 822100 |
| **5** | Quba rayonu Söhüb kəndi 80 ş.y. məktəbin tikintisi | 3440 | 488 | "Təmirçi" KM | 7000 | "Rabitəinşaat" ASC | Tender, 5 may 2008 | 240000 | 236800 |
| **6** | Quba rayonu Susay kəndi 220 ş.y. orta məktəbin tikintisi | 9490 | 1349 | "Təmirçi" KM | 5300 | "Sabiqət İnşaat" MMC | Tender, 8 aprel 2008 | 848000 | 839500 |
| **7** | Quba şəhəri 3 saylı məktəbin əsaslı təmiri | 18500 | 3904 | "Təmirçi" KM | 3500 | "Ceyhun" MMC | Birbaşa müqavilə, 18 aprel 2008 | 462000 | 456800 |
| **8** | Quba rayonu, Kələnov kənd orta məktəbi, 80 ş.y. 4 sinif otağının tikintisi | 780 | | "Təmirçi" KM | 7900 | "Lalə" firması | Tender, 25 aprel 2007 | 160000 | 157900 |
| **9** | Xaçmaz rayonu Bostançı kəndi 220 ş.y. orta məktəbin tikintisi | 2380 | 1349 | "Təmirçi" KM | 5300 | "Rabitəinşaat" ASC | Tender, 8 aprel 2008 | 832000 | 823000 |
| **10** | Xaçmaz rayonu Mehrəli Qışlaq kəndində 192 ş.y. məktəbin tikintisi | 8250 | 1171,2 | "Təmirçi" KM | 4700 | "Rabitəinşaat" ASC | Tender, 16 may 2007 | 580000 | 570000 |

[2] Bu məlumatlar  Nazirlər Kabinetinin dövlət investisiya xərclərinin bölüşdürülməsi sərəncamları və Təhsil Nazirliyinin AİYİB-ə 2 mart 2010-cu il tarixli cavab məktubuna əsasən ümumiləşdirilib.

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **11** | Xaçmaz şəhəri 1176 ş.y. 8 saylı orta məktəbin tikintisi | 32210 | 7056 | "Azkommun-layihə" Lİ | 18000 | "Rabitəinşaat" ASC | Tender, 16 sentyabr 2006 | 1650000 | 1735000 |
| **12** | Xaçmaz şəhəri 840 ş.y. 9 saylı orta məktəbin tikintisi | 23450 | 5124 | "Azkommun-layihə" Lİ | 16000 | "Ceyhun" MMC | Tender, 16 sentyabr 2006 | 891000 | 1085000 |
| **13** | Xaçmaz şəhəri 2 saylı 640 ş.y. orta məktəbin əsas təmiri | 18500 | 3904 | "Təmirçi" KM | 3500 | "Meliorator TQ" MMC | Birbaşa müqavilə, 18 aprel 2008 | 771000 | 767900 |
| **14** | Xaçmaz rayonu Xudat şəhəri 840 ş.y. orta məktəbin tikintisi | 23450 | 5124 | "Azkommun-layihə" Lİ | 16000 | "Meliorator TQ" MMC | Tender, 16 sentyabr 2006 | 779000 | 974200 |
| **15** | Xaçmaz rayonu Qarabağı kənd ibtidai məktəbi, 60 ş.y. 3 sinif otağının tikintisi | 460 | | "Təmirçi" KM | 5900 | "Rabitəinşaat" ASC | Tender, 25 aprel 2007 | 144000 | 143000 |
| **16** | Xaçmaz rayonu, Xudat şəhər 4-cü şöbə ibtidai məktəbi, 60 ş.y. 3 sinif otağının tikintisi | 460 | | "Təmirçi" KM | 5900 | "Rabitəinşaat" ASC | Tender, 25 aprel 2007 | 146000 | 144000 |
| **17** | Bərdə rayonu Kətəlparaq kəndi 640 ş.y. orta məktəbin tikintisi | 18500 | 3904 | "Təmirçi" KM | 13400 | "Birlik" firması | Tender, 8 aprel 2008 | 1370000 | 1345300 |
| **18** | Bərdə şəhər Qarışıq tipli internat məktəbin tədris korpusunun tikintisi | 1586 | | "Təmirçi" KM | 4100 | "Birlik" firması | Tender, 29 oktyabr 2007 | 640000 | 631600 |
| **19** | Bərdə rayonu, Cumalar kənd orta məktəbi, 160 ş.y. 8 sinif otağının tikintisi | 1240 | 360 | "Azkommun-layihə" Lİ | 10600 | "Elnur LTD" MMC | Tender, 25 aprel 2007 | 217000 | 214400 |
| **20** | Tərtər rayonu 480 ş.y. Sarov kənd orta məktəbinin əsaslı təmiri | 14300 | 2928 | "Konstruktor" MMC | 4300 | "Elnur LTD" MMC | Birbaşa müqavilə, 18 aprel 2008 | 450000 | 588000 |

- ***Xaçmaz şəhər 8 saylı məktəbi***

Bu layihə 1 176 şagird yeri olan üçmərtəbəli məktəbin tikintisini nəzərdə tutur. Bunun üçün Nazirlər Kabinetinin 19 fevral 2007-ci il tarixli sərəncamı ilə 1 657 min manat ayrılıb.

Layihə smeta sənədlərini "Azkommunlayihə" Lİ hazırlayıb və buna görə 18 min manat ödənib. Layihədə məktəb binası, idman zalı, su hovuzları, yarımstansiya, qazanxana, abadlaşdırma, hasarın tikintisi və avadanlıqla təchizat nəzərdə tutulub.

Podratçı şirkət "Rabitəinşaat" ASC-dir. Bu şirkət tender əsasında seçilib və 16 sentyabr 2006-cı ildə onunla müqavilə bağlanıb. Tikinti 7 ay çəkib, layihə qısa müddət ərzində tamamlanıb. Layihədə nəzərdə tutulan işlər, əsasən, görülüb, məktəbin fasadı daşla üzlənib, təchizatla bağlı məktəb rəhbərliyinin narazılığı yoxdur.

Məktəbin cəmi 2 il əvvəl istifadəyə verilməsinə baxmayaraq, onun daxili divarlarında çoxlu çatlar əmələ gəlib. Həmçinin rigerlər ətrafındakı çatlar tikintinin keyfiyyətində ciddi problemlərin olduğunu göstərir. Binanın arxa tərəfində, çöl divarlarda də çatların olduğu yerlər var.

"Rabitəinşaat" ASC Xaçmaz və Quba rayonlarında bir çox məktəb tikintisi layihələrinin podratçısı olub və onların əksəriyyətində problem yaranıb. Şirkətin Xaşmaz rayonu Mehrəli Qışlaq kəndində inşa etdiyi 192 şagird yerlik məktəbin də çöl divarlarında çatlar əmələ gəlib və suvağı tökülməyə başlayıb.

Şirkətin Qarabağı kəndində inşa etdiyi ibtidai məktəbin də çöl divarlarında suvaq tökülüb və qapılar sıradan çıxmağa başlayıb. Podratçının Qubanın Söhüb kəndində inşa etdiyi 80 şagird yerlik məktəbin isə damını külək aparıb, divarların emulsiyası tökülüb, laminat döşəmə dağılıb. Məktəbin damı 2009-cu ildə yenidən təmir edilib.

Podratçı şirkətin ofisi Bakıda yerləşir. Şimal bölgəsində çoxsaylı məktəb tikintisi layihələri həyata keçirsə də, şirkət burada öz ofisini açmayıb. Xaçmaz rayonunda şirkətin işlərini bir nəfər həyata keçirib ki, o da əsasən əməkhaqqının paylanması ilə məşğul olub.

- ***Xaçmaz şəhər 9 saylı məktəbi***

Layihə 840 şagird yerlik, üçmərtəbəli məktəbin inşasını nəzərdə tutur. Bunun üçün Nazirlər Kabinetinin 19 fevral 2007-ci il tarixli sərəncamı ilə 891 min manat ayrılıb.

LSS-i "Azkommunlayihə" Lİ hazırlayıb və buna görə 16 min manat ödənib. Layihədə məktəb binası, idman zalı, su hovuzları, yarımstansiya, qazanxana, abadlaşdırma, hasarın tikintisi və avadanlıqla təchizat nəzərdə tutulub.

Podratçı təşkilat "Ceyhun" MMC-dir. Təhsil Nazirliyinin məlumatına görə, podratçı tender əsasında seçilib və 16 sentyabr 2006-cı il tarixli müqavilə ilə layihənin icrasına başlanıb. Lakin Xaçmaz Təhsil Şöbəsində belə bir tenderin keçirilməsi ilə bağlı məlumat yoxdur.

Tikinti zamanı layihədən kənaraçıxmalar olmayıb. Tikintiyə çəkilən faktiki xərc 1 085 min manat olub. Belə görünür ki, Nazirlər Kabinetinin ictimaiyyətə açıqlanmayan analoji sərəncamlarının biri ilə layihəyə əlavə vəsait ayrılıb.

Müşahidə zamanı layihənin icrasında ciddi çatışmazlıqlar qeydə alınmayıb. Məktəbin görkəmi normaldır, rəhbərliyin təchizatla bağlı narazılığı yoxdur.

- ***Bərdə şəhər Qarışıq tipli internat məktəbi***

Bu layihədə tədris korpusunun tikintisi nəzərdə tutulub. Tikinti 2007-2008-ci illərdə həyata keçirilib. Bu məqsədlə Nazirlər Kabinetinin 19 fevral 2007-ci il sərəncamı ilə 300 min, 6 fevral 2008-ci il tarixli sərəncamı ilə 340 min – cəmi 640 min manat ayrılıb. Bu məktəbdə məcburi köçkünlər məskunlaşdığından onun fəaliyyəti iflic olub və yeni tədris korpusunun tikintisi zərurəti yaranıb.

Tədris korpusu ikimərtəbəlidir və 220 şagird üçün nəzərdə tutulub. Layihə smeta sənədlərini "Təmirçi" kiçik müəssisəsi hazırlayıb və buna görə ona 4 100 manat ödənib.

Layihənin podratçısı "Birlik" firmasıdır. Podratçı tender əsasında müəyyənləşib və 29 oktyabr 2007-ci ildə uyğun müqavilə bağlanıb. Tenderdə başqa hansı şirkətlərin iştirak etdiyi bəlli deyil. Maraqlıdır ki, firma məktəbin tikintisini 2007-ci ilin avqust ayında başlayıb. Podratçı şirkətin məlumatına görə, tender həmin ilin mart ayında keçirilib. Təhsil Nazirliyinin məktubunda isə tenderin keçirilmə vaxtı kimi həmin ilin oktyabr ayı göstərilir.

Layihədə tədris korpusunun tikintisi ilə yanaşı avadanlıqla təchizatı, korpusun önünün asfaltlanması, həyətin yaşıllaşdırılması nəzərdə tutulub. Bununla belə, məktəb təhvil verilsə də, avadanlıqla təchizat yarımçıq həyata keçirilib. Laboratoriyalar ümumən avadanlıqla təchiz edilməyib. Yaşıllaşdırma məktəbin təşkilatçılığı ilə daxili imkanlar hesabına aparılıb.

"Birlik" firması 2008-ci ilin fevralında işlərin yekunlaşdığını və təhvil aktının tərtib edildiyini bildirir. Bununla belə, yeni tədris ili başlayanadək xeyli yarımçıq iş qalıb ki, bu işlərin də bir çoxunu məktəb öz imkanları hesabına həyata keçirib. Qeyd etmək lazımdır ki, bir qayda olaraq, dövlət investisiyaları üzrə ayrılmış vəsaitlər həmin ilin yanvar-fevral aylarında müəyyənləşir və mart-aprel aylarından istifadə olunmağa başlayır. Bu layihə üzrə vəsaitlərin ikinci hissəsinin ayrılması isə tikinti işlərinin tamamlanmasından sonraya təsadüf edir.

Podratçı layihə üzrə ayrılmış vəsaitlərin 10%-nin əməkhaqqıya, qalanı isə mal-material alınmasına və digər xərclərə sərf olunub. Tikinti işlərini podratçının cəlb etdiyi 50 nəfərədək işçi həyata keçirib. Onların əksəriyyətinin əmək müqaviləsi olmayıb.

- ***Bərdə rayon Kətəlparaq kənd orta məktəbi***

Layihədə 640 şagird yerlik yeni məktəbin tikintisi, təchizatı, qazanxana, elektrik yarımstan-siyası, idman zalı, su hovuzları, abadlaşdırma və hasarın tikintisi nəzərdə tutulub. Bu məqsədlə Nazirlər Kabinetinin 6 fevral 2008-ci il tarixli sərəncamı ilə 1 370 min manat vəsait ayrılıb. LLS-i "Təmirçi" KM hazırlayıb və buna görə ona 13,4 min manat ödənib.

Təhsil Nazirliyinin məlumatında tikinti sahəsinin 18500 $m^2$, məktəb sahəsinin isə 3904 $m^2$ olduğu bildirilir. Ancaq məktəb binasının uzunluğunun 59 m, eninin 16 m və üçmərtəbəli olduğunu nəzərə alsaq, onun sahəsinin 2784 $m^2$ olduğu aydınlaşır. Bundan əlavə, məktəb, layihədə nəzərdə tutulduğu kimi, 640 şagird yerlik deyil, 624 şagird yerlikdir.

Layihənin podratçısı “Birlik” firmasıdır. Təhsil Nazirliyinin məlumatına görə, podratçı tender əsasında seçilib və onunla 8 aprel 2008-ci ildə uyğun müqavilə bağlanıb.

Tikinti prosesi zamanı məktəb rəhbərliyinin LLS-lə tanışlıq imkanı olmayıb. Məktəb rəhbərliyi podratçı şirkətdən yalnız şifahi şəkildə layihədə nələrin nəzərdə tutulduğunu öyrənə bilib.

Podratçı firma məktəbin döşəməsinə linolium vurmaq niyyətindəymiş. Lakin məktəb rəhbərliyinin təkidi ilə dəhlizlərə metlax, otaqlara isə laminat vurulub. Layihədə nəzərdə tutulsa da, məktəbə təbii qaz xətti çəkilməyib, qazanxananın quraşdırılması isə yarımçıq qalıb.

Monitorinq dövründə [3] layihə üzrə başqa çatışmazlıqlar da aşkar edilib.

***Tikinti üzrə:***

*1) Həyətin işıqlandırma sistemi yoxdur;*

*2) Darvazalar quraşdırılmayıb;*

*3) Qazanxana binasının tikintisi yarımçıq qalıb, damı örtülməyib;*

*4) Artezian quyusunun istifadəsi üzrə işlər başa çatdırılmayıb;*

*5) Hasar keyfiyyətsiz çəkilib, altı hörülməyib;*

*6) İclas zalına çıxan pilləkənin məhəccəri yoxdur;*

*7) Yanğından mühafizə avadanlıqları quraşdırılmayıb;*

*8) 50 kubluk kanalizasiya quyusundan biri tikilməyib.*

***Təchizat üzrə:***

*1) Direktor, kargüzar, müəllimlər otağı, həkim otağı da daxil olmaqla, 6 otağa avadanlıq verilməyib;*

*2) Seyflər verilməyib;*

*3) Kitabxana üçün heç bir avadanlıq (rəf, stol, stul və s.) verilməyib;*

*4) Bufetə çəmi 3 stol qoyulub, stullar verilməyib;*

*5) Kompüter otağına 22 ədəd kompüter dəsti yerləşdirilib, ancaq bir monitor çatışmır. Həmçinin printer, surətçıxaran, proyektor, skaner və başqa köməkçi avadanlıq da verilməyib. İnternetə çıxış imkanı da yoxdur. Kompüter otağı üçün stullar verilməyib;*

*6) Məktəb rəhbərliyi üçün nəzərdə tutulan kompüter və ofis avadanlıqları verilməyib;*

[3] Bərdə və Tərtər rayonlarındakı məktəb layihələrinin müşahidəsi 24-27 iyun 2009-cu il tarixdə aparılıb.

- ***Bərdə rayon Cumalar kənd orta məktəbi***

Layihə Cumalar kənd məktəbi üçün 160 şagird yerlik 8 əlavə sinif otağının tikintisini nəzərdə tutur. Nazirlər Kabinetinin 19 fevral 2007-ci il tarixli sərəncamı ilə layihənin maliyyələşdirilməsi üçün 217 min manat ayrılıb.

LLS-i "Azkommunlayihə" Lİ hazırlayıb və buna görə 10,6 min manat ödənib. Layihənin podratçısı "Elnur LTD" MMC-dir. Təhsil Nazirliyinin məlumatına görə, podratçı tender əsasında müəyyənləşib və onunla 25 aprel 2007-ci ildə uyğun müqavilə bağlanıb. Bununla belə, podratçının nümayəndəsi monitorinq müsahibəsi zamanı tenderin nə vaxt keçirildiyini xatırlamayıb.

Bu layihə çərçivəsində, faktiki olaraq, məktəbin yeni korpusu tikilib və onun sahəsi 360 $m^2$-dır. Eyni zamanda, məktəb 160 şagird üçün parta və stul, 8 müəllim masası və stulu, hər sinif üçün yazı taxtası və qarderobla təchiz olunub. Yeni korpus qızdırıcı sistemlə təchiz edilib. Kənddə təbii qaz olmadığından bu sistem elektrik enerjisi və ya maye yanacaqla işləyə bilər. Həmçinin hər 1 tonluq su çəni və 1 tonluq maye yanacaq çəni və yeraltı su hovuzu inşa olunub. Məktəbin həyəti hasarlanıb. Məktəbin həyətində təxminən 300 $m^2$ ərazi asfaltlanıb.

Tikinti ərəfəsində təhsil şöbəsi, podratçı şirkət və məktəb rəhbərliyi razılaşsalar da, sonradan "Elnur LTD" MMC məktəb üçün 100 Vt-lıq əvəzinə 40 Vt-lıq generator quraşdırıb.

Podratçı şirkət layihə üzrə ayrılan vəsaitin 30%-nin əməkhaqlarına, qalan vəsaitin isə mal-material, avadanlıq alınmasına və digər xərclərə sərf edildiyini bildirib.

Qeyd etmək lazımdır ki, Cumalar kənd orta məktəbinin əsas binası bərbad vəziyyətdədir və o, yenə də istifadə olunmaqdadır. Yeni sinif otaqları istifadəyə verilsə də, bəzi siniflər, məktəb rəhbərliyinin kabinetləri, müəllimlər otağı və kitabxana köhnə korpusda yerləşir. Yeni məktəb korpusu Cumalar kəndinin məktəb ehtiyacını tam qarşılamayıb.

- ***Tərtər rayon Sarov kənd orta məktəbi***

Layihə 480 şagird yerlik Sarov kənd orta məktəbinin əsaslı təmirini nəzərdə tutur. Bunun üçün Nazirlər Kabinetinin 6 fevral 2008-ci il tarixli sərəncamı ilə 450 min manat ayrılıb.

LSS-i "Konstruktor" MMC hazırlayıb və buna görə 4 300 manat ödənib. Layihənin podratçısı "Elnur LTD" MMC-dir. Podratçının seçilməsi üçün tender keçirilməyib, 18 aprel 2008-ci il tarixdə "Elnur LTD" MMC ilə birbaşa müqavilə bağlanıb.

Podratçı şirkət LLS-lə məktəb müdiriyyətinin tanış olmasına imkan yaradıb, lakin sənədin üzü təqdim edilməyib. Layihəyə əsasən, məktəbin damı, döşəmə təmir edilib, qapılar, pəncərələr dəyişdirilib. Təmir zamanı müasir tipli dam örtüyü materialından istifadə edilib, pəncərələr plastik və qoşaşüşəli, qapılar Avropa tiplidir, döşəmə isə laminatdandır. Bununla belə, təmirdən dərhal sonra laminatlar çox yerdə çatlayıb və qopub. Həmçinin məktəbin həyətində abadlıq və yaşıllaşdırma işləri aparılmayıb, sinif otaqlarındakı su kranları ləğv olunub. Podratçı bu işlərin LLS-ə daxil olmadığını bildirib.

"Elnur LTD" MMC-nin nümayəndəsi bildirib ki, əvvəl layihə üzrə idman zalının təmiri nəzərdə tutulmayıb, sonradan əlavə edilib. Bununla da layihənin dəyəri 450 min manatdan 588 min manatadək artıb. 2008-ci ildə layihənin tamamlanması üçün dövlət büdcəsindən əlavə vəsait ayrılıb.

Podratçı şirkət xərclərin 30%-nin əməkhaqları, qalanının isə mal-material və digər xərclər təşkil etdiyini bildirib. Təmirə 70-dək işçi cəlb edilib, onların da əksəriyyətinin əmək müqaviləsi olmayıb.

### ➢ *Müqayisə və təhlil*

Azərbaycanda dövlət investisiyaları hesabına inşa olunan məktəblərin əksəriyyəti bir-birindən xarici görkəminə, təchizat imkanlarına və sahəsinə görə fərqlənir. Bu fərq şagird yerlərinin və ya sinif otaqlarının sayı bərabər və yaxın olan məktəblər üçün də xarakterikdir.

Tikilmiş yeni məktəblərin bir çoxu görkəmcə keçmiş sovet dövründəki məktəblərdən müsbət mənada nisbətən fərqlənsə də, təchizat səhiyyəsi müasir tipli məktəblərlə müqayisədə qat-qat aşağıdır. Xüsusən də məktəb laboratoriyalarının, kompüter otaqlarının və kitabxanaların təchizatı formal və görüntü xarakteri daşıyır. Yeni tikilmiş məktəblərin xarici görkəmi də aldadıcıdır və problemlər çox halda istifadəyə veriləndən bir müddət keçdikdən sonra özünü göstərir.

Dövlət investisiyaları hesabına tikilmiş məktəblərin bəziləri şagird yerlərinin, sinif otaqlarının sayına, həmçinin məktəb binasının hər kvadratmetrinə düşən vəsaitin həcminə görə əhəmiyyətli dərəcədə fərqlənir.[4] Məktəblərin sahəsinə görə ortaya çıxan qiymət fərqləri daha çox diqqəti çəlb edir. Eyni zamanda, belə müqayisə, şagird yerləri və sinif otaqlarının sayından asılı olmayaraq, məktəblərin əlavə imkanlarını (idman zalı, bufet və s.) da xeyli dərəcədə nəzərə almış olur.

Monitorinq üçün seçilmiş məktəb üzrə 1 $m^2$ sahəyə düşən xərclər 190 manatdan 702 manatadək dəyişib. Xudat şəhər 4 saylı məktəbin tikintisinin $m^2$-i 190 manata, Quba rayonu Xınalıq kənd məktəbinin $m^2$-i 702 manata başa gəlib. Həmçinin Xudat şəhər 4 saylı məktəbin $m^2$-nə düşən xərc 190 manat olduğu halda, Xaçmaz rayon 2 saylı məktəbin əsaslı təmiri $m^2$ üzrə 197 manat, Tərtər rayonu Sarov kənd məktəbinin əsaslı təmiri isə 201 manat təşkil edib. Qubanın Ağbil və Giləzikənd orta məktəbləri bütün parametrlərinə görə eyni olsa da, ikinci məktəb birinciyə nisbətən təxminən 20% baha başa gəlib. Qeyd etmək lazımdır ki, hər iki məktəb 2008-ci ildə istifadəyə verilib.

**Bir sıra məktəb layihələri üzrə 1 $m^2$-ə düşən xərc (manat)**




*Belə görünür ki, dövlət büdcəsindən məktəblərin tikintisinə ayrılmış vəsaitlərlə onun keyfiyyəti arasında elə bir mütənasiblik yoxdur. Xudat 4 saylı və Mehrəli Qışlaq məktəblərinin müqayisəsi bunu göstərir*

[4] Belə müqayisəli təhlili iqtisadçı-ekspert Rövşən Ağayev aparıb – http://www.mediaforum.az/print.php?lang=az&article_id=20071126072900595&page=06

Həmçinin Qubanın Qırız Dəhnə və Söhüb kənd məktəbləri bütün parametrlərinə görə eyni olsa da, ikinci 26% baha başa gəlib. Lakin yüksək qiymətə rəğmən Söhüb kənd məktəbi etibarlı tikilməyib, onun damını külək aparıb, döşəməsi qısa müddətdə sıradan çıxıb.

**Monitorinq edilən məktəb layihələr üzrə 1 $m^2$ sahəyə çəkilən xərc (manatla)**

| # | Layihənin adı | Məktəbin sahəsi, $m^2$ | Faktiki xərc, manat | 1 $m^2$-ə düşən xərc, manat |
|---|---|---|---|---|
| **1** | Quba rayonu Xınalıq kəndi 300 ş.y. orta məktəbin tikintisi | 1830 | 1285400 | 702 |
| **2** | Quba rayonu Qırız Dəhnə kəndi 80 ş.y. ibtidai məktəbin tikintisi | 488 | 188500 | 386 |
| **3** | Quba rayonu Ağbil kəndi 220 ş.y. orta məktəbin tikintisi | 1349 | 691000 | 512 |
| **4** | Quba rayonu Giləzi kəndi 220 ş.y. orta məktibin tikintisi | 1349 | 822100 | 609 |
| **5** | Quba rayonu Söhüb kəndi 80 ş.y. məktəbin tikintisi | 488 | 236800 | 485 |
| **6** | Quba rayonu Susay kəndi 220 ş.y. orta məktəbin tikintisi | 1349 | 839500 | 622 |
| **7** | Quba şəhəri 3 saylı məktəbin əsaslı təmiri | 3904 | 456800 | 117 |
| **8** | Xaçmaz rayonu Bostançı kəndi 220 ş.y. orta məktəbin tikintisi | 1349 | 823000 | 610 |
| **9** | Xaçmaz rayonu Mehrəli Qışlaq kəndində 192 ş.y. məktəbin tikintisi | 1171,2 | 570000 | 487 |
| **10** | Xaçmaz şəhəri 1176 ş.y. orta məktəbin tikintisi | 7056 | 1735000 | 246 |
| **11** | Xaçmaz şəhəri 840 ş.y. orta məktəbin tikintisi | 5124 | 1085000 | 212 |
| **12** | Xaçmaz şəhəri 2 saylı 640 ş.y. orta məktəbin əsaslı təmiri | 3904 | 767900 | 197 |
| **13** | Xaçmaz rayonu Xudat şəhəri 840 ş.y. orta məktəbin tikintisi | 5124 | 974200 | 190 |
| **14** | Bərdə rayonu Kətəlparaq kəndi 640 ş.y. orta məktəbin tikintisi | 3904 | 1345300 | 345 |
| **15** | Tərtər rayonu Sarov kəndi 480 ş.y. orta məktəbin əsaslı təmiri | 2928 | 588000 | 201 |

Monitoronq zamanı əldə edilmiş məlumatlardan biri də təsadüfən seçilmiş məktəb layihələri üzrə LSS-i eyni qurumların hazırlamasıdır. Seçilmiş 20 layihə üzrə LSS-lərin 13-nü "Təmirçi" KM, 6-nı "Azkommunlayihə" Lİ hazırlayıb. Diqqətçəkən digər məqam isə ondan ibarətdir ki, Qarabağı və Xudat 4-cü şöbə ibtidai məktəbləri eyni göstəricilərə, həmçinin eyni dizayna malik olsalar da, onların LSS-ləri üzrə iki dəfə 5 900 manat vəsait ödənib. Həmçinin şagird yerlərinin, sinif otaqlarının, tikinti və binanın sahəsi və mərtəbələrin sayına görə eyni olan Xaçmaz şəhər 9 saylı və Xudat şəhər 4 saylı məktəblərin də LSS-lərini eyni qurum – "Azkommunlayihə" Lİ hazırlayıb və ona 2 dəfə 16 min manat ödənib.

Layihələr üzrə başqa bir məqam smeta xərclərinin strukturu ilə bağlıdır. Təhsil Nazirliyinin 2 mart 2010-cu il tarixli məktubunda bütün layihələr üzrə smeta xərclərinin 10-15%-nin əməkhaqqı, 80-85%-nin material, 4-7%-nin maşın və mexanizm alınmasına sərf olunduğu bildirilib. Nazirlik bu məlumatı AİYİB-in smeta xərclərinin strukturu ilə bağlı suallara cavab olaraq təqdim edib. Bu məlumatdan belə çıxır ki, smeta xərclərinə nəqliyyat və məktəblərin alınması üçün sərf olunan vəsait, habelə sosial sığorta ayırmaları daxil deyil. Həmçinin belə çıxır ki, podratçı qurumlar bu layihələrdən mənfəət əldə etməyiblər. Bu halda onların bu layihələri icra etməkdə maraqlarının nə olduğu anlaşılmır. Onu da qeyd edək ki, monitorinq müsahibəsində "Birlik" firmasının nümayəndəsi Kətəlparaq və Cumalar layihəsi üzrə smeta xərclərinin 30%-ni əməkhaqlarının təşkil etdiyini bildirmişdi ki, bu da Təhsil Nazirliyinin məlumatındakı rəqəmdən 2 dəfə fərqlənir.

Rəsmi məlumatlardakı başqa bir uyğunsuzluq isə Nazirlər Kabinetinin sərəncamı üzrə layihələrə ayrılmış vəsaitlərin həcmi ilə LSS-in hazırlanması, tikinti və təchizat xərclərinin cəminin fərqlənməsidir. Bu fərq bir neçə faiz həcmində olsa da, bütün layihələrdə özünü göstərir.

Layihələrin podratçılarına gəldikdə, onların əksəriyyəti nə ölkə, nə də konkret regionda tanınan qurumlardır. Monitorinqi aparılmış məktəb layihəsinin podratçılarından yalnız birinin – "Rabitəinşaat" ASC-nin internet səhifəsi var. Bu şirkət vaxtilə dövlət mülkiyyətində olmuş "Azərrabitəinşaat" ASC-nin bazasında yaradılıb. ASC-nin internet səhifəsində dövlət investisiyaları hesabına həyata keçirilən layihələrin uzun siyahısı var. Lakin həmin layihələr barədə məlumatlar və görüntülər yoxdur. Qeyd edək ki, o biri layihələrin podratçıları haqqında internetdə bircə məlumat belə tapılmayıb.

- ***Başqa layihələr***

Bu monitorinq layihəsi çərçivəsində dövlət investisiyaları hesabına tikitilən məktəb layihələri ilə yanaşı, Azərbaycanda fəaliyyət göstərən ABŞ Beynəlxalq İnkişaf Agentliyi və Yaponiya Səfirliyinin 2007-2009-cu illərdə həyata keçirdikləri bəzi məktəb layihələri barədə məlumat toplanıb, həmçinin bu layihələrdən birinin müşahidəsi aparılıb. Bu layihə Yaponiya Səfirliyinin "Ot kökləri və insan təhlükəsizliyi" proqraımı çərçivəsində verilmiş qrant əsasında Qubanın Xanagah kəndində tikilmiş məktəbdir.

ABŞ BİA-nın İcma İnkişaf Fəaliyyəti (CHF) proqramı çərçivəsində Şəki rayonunun Kiş kənd 4 saylı orta məktəbində 8 otaqlı yeni korpus tikilib və 2007-ci ilin sentyabrında təhvil verilib. Bu məktəbdə 220 şagird təhsil alır. Layihəyə 33,6 min manat vəsait sərf edilib. Bunun 22,9 min manatını CHF proqramı, qalanını isə kənd bələdiyyəsi və icma sərf edib.

2000-ci ildən 2009-cu ilin ortalarınadək Yaponiya hökumətinin "Ot kökləri və insan təhlükəsizliyi" Qrant Proqramı çərçivəsində Azərbaycanda 115 layihə həyata keçirilib və buna da 8 070 min dollar vəsait xərclənib. Bu vəsait səhiyyə, tibb, ibtidai və orta təhsil, sosial müdafiə, ətraf mühit, yoxsulluğun azaldılması və gəlirlərin artırılması sahəsinə yönəlib.

Proqram çərçivəsində 2007-ci ildə həyata keçirilən layihələrdən biri Qax rayonunun İbahlı kəndində inşa edilən orta məktəbdir. Bu məktəb 200 şagird yerlikdir və 14 sinif otağından ibarətdir. Məktəbin tikintisi 89,96 min dollara (təxminən 72 min manat) başa gəlib.

2008-ci ildə səfirliyin dəstəyi ilə Zaqatalanın Göyəm kəndində tikilmiş 12 sinif otağından ibarət məktəb 85 min dollara (təxminən 68 min manat), Xocavənd rayonunda inşa edilmiş 12 sinif otağından ibarət məktəb isə 86 min dollara başa gəlib.

Qrant proqramı çərçivəsində 2009-cu ildə həyata keçirilmiş layihələrdən biri də Qubanın Xanagah kəndində inşa edilmiş 5 sinif və 1 müəllimlər otağından ibarət 116 şagird yerlik məktəbdir. Layihə 85 867 dollara (68 972 manat) başa gəlib. Monitorinq prosesi zamanı dövlət investisiyaları hesabına tikilmiş məktəblərlə müqayisələr aparmaq məqsədilə Xanagah layihəsinə baxış keçirilib.

Xanagah kəndi Quba rayon mərkəzindən 60 km aralıda, dağlıq ərazidə yerləşir. Məktəb tikintisi layihəsini şimal bölgəsində fəaliyyət göstərən "Lira" Gənc İstedadlar Cəmiyyəti həyata keçirib. Məktəbin cizgisini Xaçmaz Rayon İcra Hakimiyyətinin arxitektoru təmənnasız hazırlayıb. Tikinti işlərini isə "21-ci Əsr" MMC aparıb. Podratçı şirkət tender əsasında seçilib. Tenderdə, həmçinin, "Bərpaçı" MMC və "Elita" firması iştirak edib. Məktəb binasının sahəsi 220 $m^2$, pəncərələri plastik, qapılar Avropa tipli, döşəmə taxtadandır. Tavanın hündürlüyü 3 m-dir. Dam üçün müasir tipli örtükdən istifadə edilib. Məktəb binası rənglənib. Layihə çərçivəsində məktəbə elektrik xətti çəkilib, həyətə qırma daş tökülüb. Həmçinin məktəbə adı verilmiş şəhid Əflatun Cabbarovun büstü qoyulub. Məktəbin təchizatını isə Quba Rayon Təhsil Şöbəsi həyata keçirib.

Şagird yerlərinin və sinif otaqlarının sayına görə bu məktəbdən iki dəfə kiçik olan, 2007-ci ildə tikilmiş Xaçmaz rayon Qarabagı və Xudat 4-cü şöbə məktəbləri Xanagah məktəbi ilə müqayisədə 2 dəfədən artıq baha başa gəlib. Eyni zamanda, Xanagah məktəbinin $m^2$-i 312 manata başa gəldiyi halda, göstəricilərinə görə yaxın olan, 2008-ci ildə tikilmiş Söhüb kənd məktəbinin $m^2$-nə 485 manat xərclənib. Qeyd edək ki, sinif otaqlarının sahəsi, tavanın hündürlüyü və pəncərələrin ölçüsünə görə Xanagah kənd məktəbi ilə dövlət investisiyaları hesabına tikilmiş uyğun məktəblər fərqlənmir.

# III. ŞƏFFAFLIQ VƏ HESABATLILIQ

Hazırda büdcə vəsaiti hesabına məktəblərin tikintisi və təmiri layihələri barədə məlumatların əldə edilməsi müşkülə çevrilib. Nazirlər Kabinetinin dövlət investisiya layihələri üzrə vəsait bölgüsünü nəzərdə tutan sərəncamlar ictimaiyyətə açıqlanmadığından və ekspertlərdən gizlədildiyindən onun əldə edilməsi bir neçə ay çəkir. Layihələrin detalları barədə məlumatların əldə edilməsi isə uzun dövr tələb edir.

2003-2008-ci illərdə ölkədə 1 281 yeni məktəbin tikilib istifadəyə verilməsi, 2008-2012-ci illərdə daha 2 250 məktəbdə yeni binanın və əlavə korpusların tikintisi, həmçinin əsaslı təmir işləri nəzərdə tutulduğu halda bu proqramlar haqqında Təhsil Nazirliyinin saytında məlumat yerləşdirilməyib.

AİYİB bu layihəni icra edərkən 13 noyabr 2008-ci il və 26 yanvar 2009-cu il tarixlərdə Təhsil Nazirliyinə müraciət edərək Quba, Xaçmaz, Bərdə və Tərtər rayonlarında məktəblərin tikintisi və təmiri barədə məlumat istəyib. Lakin nazirlik 24 fevral 2009-cu il tarixli məktubla sorğuya cavab verməkdən imtina edib. Təşkilatın bununla bağlı ilkin məhkəmə instansiyasına müraciəti nəticə verməyib. Nərimanov Rayon Məhkəməsi (hakim: S.T.Alıyeva, 10 mart 2009) nazirliyin üzrərinə suallara ətraflı cavab verməsi öhdəliyinin qoyulması barədə qətnamə çıxarılması və qanunvericiliyin tələblərini pozan vəzifəli şəxslər barədə xüsusi qərardadın çıxarılması barədə iddianı rədd edib. Bakı Şəhər Apellyasiya Məhkəməsinə ünvanlanmış apellyasiya şikayəti də təmin edilməyib (hakimlər: G.A.Quliyev, İ.Ş.Vəliyev və M.T.Əhmədova, 28 iyul 2009). Bu qərardan Ali Məhkəməyə verilən kassasiya şikayəti isə təmin edilib. 23 noyabr 2009-cu il tarixdə Ali Məhkəmə Təhsil Nazirliyinin AİYİB-in informasiya sorğusuna cavab verməməsini qanunsuz hesab edib və Bakı Apellyasiya Məhkəməsinin 28 iyul 2009-cu il tarixli qərarı ləğv edilib. İş yenidən baxlımaq üçün apellyasiya instansiyasına göndərilib. Bakı Apellyasiya Məhkəməsi işə yenidən baxaraq Təhsil Nazirliyinin informasiya sorğusuna cavab verməməsini qanunsuz hesab edib və sorğunun cavablandırılmasını nazirliyin qarşısına vəzifə kimi qoyub.

Nəhayət, Təhsil Nazirliyi 2 mart 2010-cu ildə AİYİB-in Quba, Xaçmaz, Bərdə və Tərtər rayonlarında məktəb tikintisi və təmiri barədə suallarına cavab verib. Beləliklə də 20 məktəb layihəsi barədə ümumi məlumatın alınması 1 il 3 aydan artıq çəkib.

Təhsil Nazirliyi məktəblərin tikintisi və təmiri ilə bağlı işlərə 2008-ci il üzrə illik hesabatında bir neçə cümlə həsr edib. Bunlar isə tikilmiş və təmir edilmiş məktəblərin sayı ilə bağlıdır. Nazirliyin 2009-cu il üzrə illik hesabatında da məktəblərin tikintisi və təmiri ilə bağlı analoji məlumatlardan başqa bir şey yoxdur. Hətta, demək olar ki, 2008-ci və 2009-cu illərin hesabatlarında gedən cümlələr də eynidir, sadəcə, rəqəmlər dəyişdirilib. Həmçinin hesabatlarda Heydər Əliyev Fondunun məktəb tikintisi ilə bağlı fəaliyyətinə həsr olunmuş cümlələr də hesabatlarda dəyişməyib.

Nazirlər Kabinetinin fəaliyyəti haqqında 2008-2009-cu il hesabatlarında da tikilmiş və təmir edilmiş məktəblərin sayından əlavə məlumatlar yoxdur.

Müqayisə üçün qeyd edək ki, Azərbaycan kimi hazırda iri neft gəlirləri əldə edib sosial layihələr həyata keçirən Qazaxstanda hər vilayət üzrə "100 məktəb, 100 xəstəxana" proqramı reallaşdırılır. Bu proqramlar və onların icrası haqqında geniş məlumatlar Qazaxstanın İqtisadiyyat və Büdcə Planlaşdırması Nazirliyinin, Təhsil və Elm Nazirliyinin saytlarında, həmçinin vilayətlərlə bağlı informasiya portallarında yerləşdirilib.

İnkişaf etmiş Avropa ölkələrində, ABŞ-da isə dövlət məktəblərinin tikintisi və göstəricilərinin ayrıca statistikası aparılır və burada şəhərlər və ştatlar üzrə məktəb tikintinə çəkilən xərclər, həmçinin hər $m^2$ məktəb sahənin dövlətə neçəyə başa gəlməsi barədə məlumatlar əks olunub. Bu məlumatları isə hesablama palatalarının internet səhifəsindən əldə etmək mümkündür.

# IV. NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR

Azərbaycanın bölgələrində dövlət büdcəsi vəsaiti hesabına inşa edilən 20 məktəb tikintisi və təmiri layihəsinin monitorinqinin yekunu olaraq AİYİB aşağıdakı nəticələrə gəlib:

*1) Azərbaycanda dövlət investisiyaları hesabına reallaşan məktəb tikintisi və təmiri layihələrinin hazırlanması proqramlaşdırılmır, ehtiyaclar lazımi səviyyədə qiymətləndirilmir. Bunun nəticəsidir ki, məktəb layihələri təsdiqlənərkən rayon icra hakimiyyəti başçılarının siyasi çəkisi, həmçinin royon və kəndlərin qeyri-rəsmi hamilərinin (deputatlar, vəzifəli şəxslər) mövqeyi xüsusi rol oynayır.*

*2) Azərbaycanda vahid məktəb standartları yoxdur və bu standartların formalaşdırılması istiqamətində iş getmir. Bunun nəticəsidir ki, yeni tikilmiş məktəblər həm dizaynına, həm imkanlarına və təchizatına, həm də smeta dəyərinə görə çox halda fərqlənir.*

*3) Məktəblərin tikintisi və təmiri üzrə podratçılar müəyyən edilərkən çox halda qanunvericiliyin tələblərinə*[5] *zidd olaraq tender keçirilmir. Tenderin keçirildiyi hallarda isə bu, adətən, formal xarakter daşıyır. Layihələrin podratçılarının əksəriyyəti yetərli imkana və peşəkarlığa malik deyil. Bu şirkətlərin əksəriyyətinin normal ofisi, işçi heyəti və dövlət büdcəsi vəsaitlərini istifadə etdiyi üçün ictimai hesabatlığı (o cümlədən, internet səhifəsi) yoxdur.*

*4) Bir sıra layihələr üzrə məktəblər tikilib istifadəyə veriləndən az müddət keçdikdən sonra divarlarda və döşəmələrdə çatlar əmələ gəlib, binaların fasadları korlanmağa başlayıb, ya da damı uçub. Bunlara misal olaraq Xazmaz şəhər 8 saylı, Mehrəli Qışlaq, Qarabağı, Quba rayonu Söhüb kənd məktəblərini göstərmək olar. Bir sıra layihələr üzrə tikinti dövründə işlər başa çatdırılmayıb və təchizat yarımçıq həyata keçirilib. Buna misal olaraq Bərdə rayonu Kətəlparaq və Sarov kənd məktəblərini göstərmək olar.*

*5) Təhsil Nazirliyi məktəb tikintisi və təmiri layihələri üzrə ayrıca hesabat açıqlamır, illik hesabatlarına bu proqramlar və onların icrası ilə bağlı məlumatları daxil etmir, geniş məlumat vermir, informasiya sorğularına vaxtında və detallı cavab vermir. Bəzi hallarda isə layihələrlə bağlı Təhsil Nazirliyinin verdiyi rəsmi məlumatlar reallığı əks etdirmir və ya rayon təhsil şöbələri, podratçılar və məktəb rəhbərliklərinin məlumatları ilə üst-üstə düşmür. Məsələn, Kətəlparaq məktəbinin sahəsi, şagird yerlərinin sayi, həmçinin layihə smetalarında xərclərin strukturu barədə məlumatlar.*

[5] "Dövlət satınalmaları haqqında" qanun (27 dekabr 2001-ci il, № 245-IIQ), "Dövlət satınalmaları haqqında" qanunun tətbiq edilməsi barədə prezident fərmanı (29 yanvar 2002-ci il, №668).

Bu nəticələrdən çıxış edərək AİYİB aşağıdakı tövsiyələri təqdim edir:

*1) Təhsil Nazirliyi məktəb tikintisi və təmiri üzrə vahid və uzunmüddətli proqram hazırlaya və dövri olaraq ehtiyacların qiymətləndirilməsini həyata keçirə bilər. Belə olan halda layihələrin əvvəlcədən planlaşdırılması, büdcə prosesində nəzərə alınması mümkün olar ki, bu da, ən azı, layihələrin tələsik icrasının, habelə yarımçıq qalmasının qarşısını ala bilər.*

*2) Təhsil Nazirliyi İqtisadi İnkişaf Nazirliyi və başqa əlaqəli dövlət qurumları ilə birlikdə məktəb standartları və normaları, habelə keyfiyyət standartları yarada və standart məktəb layihələri hazırlaya bilər. Bu halda layihələrin cizgiləri, smeta sənədləri standart xarakter daşıyar ki, bu da layihələrin hazırlıq mərhələsinin qısa olmasına, çəkilən xərclərə qənaətə, tikintinin keyfiyyətinin artırılmasına və məktəblərin imkanlarının genişləndirilməsinə şərait yaratmış olar.*

*3) Təhsil Nazirliyi ilkin bir müsabiqə ilə məktəb tikintisi və təmiri üzrə təcrübəsi və imkanı olan şirkətlərin siyahısını və məlumat bazasını formalaşdıra, onu hər il yeniləyə bilər ki, tender posesində iddiaçıları qiymətləndirmək asan olsun. O biri tərəfdən, tender prosesinin şəffaf və ədalətli keçirilməsini təmin etmək üçün məlumatlar nazirliyin saytında yerləşdirilə, tender komissiyalarına QHT-lərin nümayəndələri daxil edilə bilər.*

*4) Layihə üzrə podratçılarla müqavilələr bağlanarkən keyfiyyətə bir neçə illik təminat məsələsi öz əksini tapa bilər. Eyni zamanda, istifadə müddətində keyfiyyət problemləri çıxdığı halda, məktəb rəhbərlikləri podratçı şirkətləri məhkəməyə verib problemlərin aradan qaldırılmasına nail ola bilər.*

*5) Təhsil Nazirliyi illik hesabatında məktəb tikintisi və təmirinə ayrıca bir bölmə həsr edə bilər. Həmçinin nazirlik bu prosesi şəffaf və səmərəli aparmaqla və detallı hesabatlıqla özəl sektordan və xarici mənbələrdən məktəb tikintisinə yardımlar və investisiyalar cəlb edə bilər.*

## İSTİDAFƏ EDİLMİŞ MƏNBƏLƏRİN SİYAHISI


1) Nazirlər Kabinetinin 19 fevral 2007-ci il tarixli 42s saylı sərəncamına əlavə

2) Nazirlər Kabinetinin 6 fevral 2008-ci il tarixli 44s saylı sərəncamına əlavə

3) Təhsil Nazirliyinin 2008-ci  və 2009-cu illərdə görülmüş işlərə dair hesabatları

4) Nazirlər Kabinetinin 2008-ci il və 2009-cu il üzrə fəaliyyəti haqqında hesabatlar

5) Yaponiyanın Azərbaycandakı Səfirliyinin 25 iyun 2009-cu il tarixli Mətbuat üçün məlumatı – http://www.az.emb-japan.go.jp/files/Xanagah%2009.pdf

6) Azəri Press Agentliyi – http://www.apa.az

7) Quba, Xaçmaz, Bərdə və Tərtər rayon təhsil şöbələrində aparılmış monotorinq müsahibələri

8) Podratçıların nümayəndələri ilə aparılmış monotorinq müsahibələri

9) Məktəb direktorları ilə monotorinq müsahibələri

## ƏLAVƏ. FOTOFAKTLAR




*Xaçmaz şəhər 8 saylı məktəbin zahiri görkəmi təmtəraqlı və gözəl görünür. Ancaq bu təmtərağın arxasında nə gizlənir?*

*Xaçmaz şəhər 8 saylı məktəbin təmtəraqlı xarici görkəmi olsa da, daxilində divarlar, rigerlər çatlayıb və kosmetik problemlər yaranıb*





*Xaçmaz rayon Mehrəli Qışlaq məktəbi istifadəyə verildikdən bir il sonra bu vəziyyətə düşüb*



Bərdə rayon Kətəlparaq orta məktəbinin həyəti bir ilədək bu vəziyyətdə qalıb. Buna səbəb podratçı “Birlik” firmasının su artezianının normal fəaliyyətini qaydaya salmamasıdır

Bu, Xaçmaz rayon Qarabağı kəndində 2007-ci ildə dövlət büdcəsindən ayrılmış 149 min manat vəsait hesabına tikilmiş ibtidai məktəbdir






Bu isə Yaponiya Səfirliyinin ayırdığı 69 min manat qrant hesabına Qubanın Xanagah kəndində tikilmiş 9 illik məktəbdir